# MÜNDƏRİCAT

6 Niyə dəyərlər tərbiyəsi?
12 Bəzi əsas anlayışlar
20 Dəyərlər tərbiyəsində yanaşmalar
34 Nəyi, necə etməli?
44 Məsuliyyət
60 Yardımsevərlik
76 Ədalət
92 Dostluq
108 Doğruçuluq
122 Səbir
136 Hörmət və ehtiram
152 Özünə nəzarət

# Niye dayerlar terbiyesi?





## Xoşbəxtəm, xoşbəxtsən, xoşbəxt...

Dünyada doğulmaqla başlayıb ölümlə bitən bir prosesdən keçirik. Bu müddətdə hamı xoşbəxt olmaq istəyir, bunun ardınca qaçır; insanın bütün məqsədlərinin arxasında bu arzu dayanır.

Xoşbəxt insan sülh, əmin-amanlıq və tarazlıq içindədir. İçində olduğu şəraitdə özünə qarşı heç bir təhdid, təzyiq və qorxu hiss etmədiyi üçün xoşbəxtdir. Daxili dünyasında və ya ətrafındakı şəxslərlə və hallarla bir qarşıdurma yaşamadığı üçün xoşbəxtdir.

Həsrət çəkdiyi və gözlədiyi şeylərə qovuşduğu, ehtiyacları təmin olunduğu üçün xoşbəxtdir.

Xoşbəxtlik tək başımıza yaşaya biləcəyimiz bir duyğu deyil. Onu ətrafımızdakılarla bərabər yaşayarıq. Buna görə də yaxınlığımızdakılardan başlayaraq ən uzaq ətrafımızdakı insanlara qədər hamı üçün onu arzularıq.



## Ailələr övladları üçün nə istəyərlər?

Ana-ata olaraq övladlarımız üçün xoşbəxtlik arzular, onlar üçün xoşbəxtliklər diləyərik. Onların xoşbəxt adamlar kimi yaşamaqlarıyla bağlı xəyallar qurar, həyatda da bunu təmin etməyə çalışarıq. Ailələrin övladlarının ömür boyu xoşbəxt olmalarıyla bağlı bu xəyalları gerçəkləşdirmək üçün sərf etdikləri səyləri isə iki başlıq altında qısaca qeyd etmək mümkündür: "Həyatı bacarıqları qazansınlar" və "insan olsunlar".

Övladlarımızın həyatı bacarıqlara sahib olmaqları qısa müddətdə dərs nəticələrinin yaxşı olması mənasına gəlir. Bu da gələcəkdə yaxşı işə sahib olmaqları, maddi ehtiyac çəkmədən rahat ömür sürməkləri kimi nəticəyə gətirib çıxardır. Bu bütün ana-ataların övladları üçün istədikləri şeydir. Ancaq ana-atalar övladları üçün bununla kifayətlənməzlər. Daha vacibi, onların yaxşı insan olmaqlarını istəyərlər. Yaxşı insan; məsuliyyət, hörmət, mərhəmət, səmimilik, fədakarlıq, doğruçuluq, dürüstlük kimi əsas insani dəyərləri mənimsəmiş, onlara əsaslanaraq hərəkət edən şəxsdir.



## Yaşadığımız günlər

Texnoloji inkişafın bu qədər sürətləndiyi, mədəniyyətlərarası əlaqələrin ən yüksək səviyyəyə qalxdığı müasir dövrdə ailələrin uşaq yetişdirmək mövzusunda narahatlıqları olduqca yüksəlib… Qaçdığımız, pis hesab olunan, qorxduğumuz, arzuolunmaz bəzi hadisələrin baş vermədiyi bircə günümüz yoxdur.. Misal göstərməyə ehtiyac var?

- Gənclər arasında münasibətdə və gənclərin böyüklərlə münasibətində nəzakət çərçivəsində dəyərləndirilməyəcək münasibət və davranışların müşahidə olunması və gündən-günə genişlənməsi.

- Bəzi gənclər tərəfindən zorakılığın çətinliyi aradan qaldırma vasitəsi hesab olunması və zorakılığa əl atılması.

- Bəzi gənclərdə müxtəlif radikal inanc sistemlərinə bağlanması və onların istiqamətləndirməsi ilə özünə və ya başqalarına zərərvermə hərəkətlərinin müşahidə olunması.

- Kiçikli-böyüklü çətinliklərilə bacara bilməyən kimi gənclərdə özünə zərər vurmaq meyllərinin və daha da pisi, buna cəhdlərin müşahidə olunması.

- Spirtli içki və narkotik vasitələr kimi asılılıq yaradan maddələri sınayan, istifadə edən və buna görə də ciddi sağlamlıq problemləri ilə qarşılaşan gənclərlə bağlı xəbərlərə şahid olmağımız.

Bu qəbildən daha bir neçə təəssüf doğuran və bədbinləşdirici nümunə yada salına bilər. Ancaq siyahını uzatmaq yerinə bu suala cavab axtarmaq ən doğrusudur:

Bu qaçılmaz kimi görünən ümidsiz mənzərə qarşısında ailələr nələr edə bilərlər?

## Nə etməli?

Ailələr bir damın altında yaşadıqları şəxslərin hər birinə əsas əxlaqi və insani dəyərləri anlamaq, onlara həssaslıq göstərmək və onlara uyğun, o dəyərlərlə birlikdə ömür sürmək üçün uyğun şərait yaratmaq vəzifəsi daşıyırlar. Çünki dəyərlərin gələcək nəsillərə ötürülməsi üçün görüləcək işlərin başlamalı olduğu ilk mərkəz, təbii olaraq ailədir. Dəyərlərin yeni nəsillərə qazandırılması ailədə başlayacaq, sonra isə bunu tamamlayacaq, dəstəkləyəcək və gücləndirəcək şəkildə cəmiyyət tərəfindən davam etdiriləcək. İctimai təşkilatların bu mövzuya ən uyğun imkan verən yer olaraq məktəb də bu mövzuda üstünə vacib rol götürəcək.

